## Televiziya və radio yayımı haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun hər kəsin məlumat, fikir və söz azadlığının, açıq və azad müzakirələr keçirmək hüququnun təmin edilməsinə yönəldilən televiziya və radio fəaliyyətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyənləşdirir.

### I fəsil

### ÜMUMİ MÜDDƏALAR

Maddə 1. **Əsas anlayışlar**

1.0. Bu Qanunun məqsədləri üçün istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. **abonent** - televiziya və radio (bundan sonra - teleradio) yayım xidmətlərindən istifadə edən fiziki və ya hüquqi şəxs;

1.0.2. **audiovizual informasiya** - səslə müşayiət olunan görüntülü (təsvirli) informasiya;

1.0.3. **yayım kanalı** - teleradio verilişlərinin yayımı üçün zəruri olan texniki vasitələrin məcmusu, habelə teleradio ötürücüsünün istifadə etdiyi tezlik zolağı;

1.0.4. **teleradio yayımı** - elektromaqnit dalğaları ilə açıq və ya kodlaşdırılmış formada, peyk, kabel və ya digər yerüstü texniki qurğular vasitəsi ilə kütləvi yayımlanan və istənilən sayda teleradio qəbuledicilər tərəfindən qəbul edilən səsli və ya görüntülü teleradio proqramlarının müəyyən məsafəyə ilkin ötürülməsi. Bu anlayışa həmçinin yayımın kodlaşdırılmış qurğulardan (kartlardan) istifadə etməklə hüquqi və fiziki şəxslər tərəfindən peyk vasitəsilə həyata keçirilməsinin təmin edilməsi və digər yayımçılar tərəfindən retranslyasiya edilən proqramlar da daxildir. "Teleradio yayımı" anlayışı telekommunikasiya sistemi ilə ötürülən və fərdi çağırışla qəbul edilən informasiyaları, yaxud digər materialları (faksla əlaqələr, elektron məlumat bankları və bu tipli digər xidmətlər) ehtiva etmir. [1]

1.0.5. retranslyasiya - bir teleradio yayımçısının yayımladığı teleradio proqramlarının (verilişlərinin) digər teleradio yayımçısı tərəfindən texniki vasitələrin köməyi ilə qismən, yaxud tam və dəyişdirilmədən qəbulu və eyni vaxtda yenidən yayımlanması; [2]

1.0.6. **telekommunikasiya** - elektrik və ya elektromaqnit rabitə vasitələri (kabel, optik və radio əlaqəsi və digər vasitələr) ilə hər hansı siqnalın, səsin və təsvirin məsafəyə ötürülməsi və qəbul edilməsi; [3]

1.0.7. **kollektiv bölüşdürücü şəbəkə** - teleradio proqramlarının peykdən, efirdən və kabel şəbəkəsindən qəbul olunaraq abonentlər arasında bölüşdürülməsi;

1.0.8. **yayım zonası** - fərdi qəbul şəraitinin dövlət texniki standartlarının və normalarının tələblərinə cavab verdiyi ərazi hüdudları;

1.0.9. **teleradio yayımları şəbəkəsi** - teleradio yayımçısının teleradio məhsullarını yayımlamaq üçün istifadə etdiyi və xüsusi razılıq (lisenziya) ilə müəyyənləşdirilən radiotezliklər, televiziya və radio ötürücü qurğuları, peyk ötürücü və qəbuledici stansiyaları, kabel və efir-kabel şəbəkələri;

1.0.10. **teleradio yayımlarının tezlik siyahısı** - efir məqsədi ilə istifadə olunan, istifadəsi planlaşdırılan və boş qalan radiotezlikləri əks etdirən sənəd;

1.0.11. **canlı yayım** - teleradio verilişlərinin əvvəlcədən lentə alınmadan birbaşa ötürülməsi;

1.0.12. **sosial teleradio yayımı** - karlar və ya eşitmə qabiliyyəti zəif olan insanlar üçün təhsil, tədris və informasiya xarakterli verilişlər və ya proqramlar;

1.0.13. **teleradio yayımçısı** - Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada reyestrdən keçən, teleradio proqramları (verilişləri) istehsal etmək və ya yayımlamaq səlahiyyəti olan, yaxud yayımın retranslyasiyası siqnallarının kodlarını açan qurğu və vasitələrin köməyi ilə həyata keçirilməsini təmin edən fiziki və ya hüquqi şəxs; [4]

1.0.14. **ümumölkə yayımçısı** - proqramları ölkənin bütün ərazisinə yayımlanan teleradio yayımçısı ("Ölkənin bütün ərazisi" dedikdə, televiziya verilişləri üçün ölkə əhalisinin, radio verilişləri üçün ölkə ərazisinin azı 98 faizi başa düşülməlidir);

1.0.15. **teleradio proqramı** - əhalinin geniş təbəqəsi üçün nəzərdə tutulan, bu Qanunla müəyyənləşdirilmiş tələblər əsasında hazırlanan, canlı yayımlanan yaxud əvvəlcədən lentə alınmış audio və audiovizual materialların (verilişlərin) məcmusu;

1.0.16. **teleradio verilişləri** - teleradio yayımı üçün hazırlanan, təşkilati və tematik baxımdan teleradio proqramlarının ayrıca və bitkin hissəsi sayılan informasiya və digər materiallar toplusu;

1.0.17. **teleradio proqramlarının (verilişlərinin) istehsalçısı** - yayımlanmaq üçün nəzərdə tutulan teleradio proqramları (verilişləri) hazırlayan fiziki və ya hüquqi şəxs;

1.0.18. **texniki yayım vasitələri** - proqramların istehlakçıya çatdırılması üçün istifadə olunan radioelektron vasitələrinin və texniki cihazların məcmusu;

1.0.19. **qapalı teleradio şəbəkəsi** - kütləvi yayım üçün nəzərdə tutulmayan təhsil, tədris, müdafiə, təhlükəsizlik və s. sahə maraqları üçün bir və ya bir-biri ilə əlaqəli bir neçə bina daxilində istifadə edilən kabelli televiziya;

1.0.20. **kabel şəbəkəsi yayımı** - radiosiqnalların kabel sistemi vasitəsilə ötürülməsini və qəbulunu təmin edən televiziya yayımı;

1.0.21. **əlavə informasiya** - teleradio yayım siqnalının tərkibində ötürülən və əsas proqramla heç bir əlaqəsi olmayan hərfli, rəqəmli, qrafik və digər informasiyalar;

1.0.22. **yayım siqnalı** - teleradio proqramlarını və əlavə informasiyaları ötürən elektromaqnit dalğaları;

1.0.23. **yayım cədvəli** - yayımçının efir siyasətinin aparıcı istiqamətlərini əks etdirən, teleradio proqramlarının siyahısını, adını, ardıcıllığını və efirə getmə vaxtını göstərən sənəd;

1.0.24. **sərhədsiz televiziya** - televiziya proqramlarının beynəlxalq müqavilələr əsasında digər ölkənin ərazisində yayımlanması;

1.0.25. **teleticarət** - daşınmaz əmlakın, mal və xidmətlərin alınmaq, satılmaq, göndərilmək üçün efir vasitəsi ilə təklif olunması;

1.0.26. **sponsor** - teleradio yayım fəaliyyəti ilə məşğul olmayan, adının tanınması, ticarət markasının şöhrətlənməsi yaxud imicinin yüksəlməsi məqsədi ilə ayrılıqda bir verilişi və ya bir proqramı maliyyələşdirən fiziki yaxud hüquqi şəxs;

1.0.27. **nəzarət fonoqramı** - efirə verilmiş bütün teleradio proqramlarının (verilişlərinin) nəzarət məqsədilə lentə alınması.

M a d d ə  2 . **Teleradio yayımının azadlığı**

2.1. Azərbaycan Respublikasında teleradio yayımı azaddır. Teleradioyayımın azadlığı vətəndaşların informasiyanı qanuni yolla axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək və yaymaq hüququna dövlət tərəfindən təminat verilməsinə əsaslanır.

2.2. *Bu Qanunun 2.2-1-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla teleradio* yayımı sahəsində senzura yolverilməzdir.[5]

*2.2-1. Hərbi vəziyyət dövründə "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq teleradio məlumat və materialları hərbi senzuradan keçirilə, habelə hərbi vəziyyət tətbiq edilən ərazidə (ərazilərdə) teleradio yayımının xüsusi fəaliyyət rejimi tətbiq edilə bilər.*[6]

2.3. Yayımçıların yaradıcılıq və redaksiya fəaliyyəti peşə müstəqilliyi əsasında həyata keçirilir və yalnız qanunla müəyyənləşdirilmiş hallarda məhdudlaşdırıla bilər.

2.4. Dövlət və yerli özünüidarəetmə orqanlarının, siyasi partiyaların, ictimai birliklərin, həmkarlar ittifaqı təşkilatlarının, fiziki və hüquqi şəxslərin yayımçıların yaradıcılıq və redaksiya fəaliyyətinə müdaxiləsi qadağandır.

2.5. Fövqəladə *və hərbi* vəziyyətin qüvvədə olduğu müddət ərzində şərtləri və bu şərtlərin həyata keçirilməsi qaydası göstərilməklə teleradio yayımının azadlığı müvəqqəti məhdudlaşdırıla bilər. [7]

M a d d ə  3 . **Teleradio fəaliyyətinin əsas prinsipləri**

Yayımçı öz fəaliyyətində informasiyanın əhatəliliyi, obyektivliyi, tam və doğru-dürüstlüyü, vətəndaşların öz fikir və baxışlarını sərbəst ifadə etməsi, ideoloji və siyasi plüralizm, tərəfsizlik və qərəzsizlik, insanların şəxsi və ailə həyatına müdaxilənin yolverilməzliyi, milli-mənəvi dəyərlərin qorunması, peşə etikasına və əxlaq normalarına riayət edilməsi, proqramların keyfiyyətliliyi prinsiplərinə əsaslanır.[8]

M a d d ə  4 . **Teleradio yayımı haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

4.1. Teleradio yayımı haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunundan, bu Qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

4.2. Bu Qanunla Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

M a d d ə  5 . **Teleradio yayımında inhisarçılığa məhdudiyyətlər**

5.1. Kabel şəbəkəsi ilə yayım və xarici ölkələrə yayım istisna olmaqla, bir teleradio yayımçısı, həmçinin onun struktur bölmələri televiziya ilə iki, radio ilə üç proqramdan artıq yayımla məşğul ola bilməzlər.

5.2. Fiziki və hüquqi şəxs yalnız bir teleradio yayımının təsisçisi (həmtəsisçisi) ola bilər.

## I I  f ə s i l

## YAYIMÇILAR

M a d d ə  6 . **Azərbaycan Respublikasında teleradio sistemi**

6.1. Azərbaycan Respublikasında teleradio yayımı milli teleradio sisteminin əsasını təşkil edən dövlət, bələdiyyə, özəl və ictimai yayımçılar tərəfindən həyata keçirilir.

6.2. Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında bütün yayımçılar bərabər hüquqlara malikdir və qanun qarşısında eyni məsuliyyət daşıyırlar.

M a d d ə  7 . **Dövlət yayımçısı**

7.0. Dövlət yayımçısı:

7.0.1. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada təsis olunur;

7.0.2. dövlət büdcəsi, reklamdan daxilolmalar və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir;

7.0.3 dövlətin və cəmiyyətin mənafeyinə yönəlmiş məlumatlandırıcı, maarifləndirici və əyləndirici proqramlar yayımlayır;

7.0.4. (Çıxarılıb) [9]

M a d d ə  8 . **Bələdiyyə yayımçısı**

8.1. Bələdiyyə yayımçısı:

8.1.1. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada yerli özünüidarəetmə orqanı tərəfindən təsis olunur və reyestrdən keçir;

8.1.2. yerli büdcə, reklamdan daxilolmalar və qanunla qadağan olunmayan digər mənbələr, habelə yerli rəy sorğusu yolu ilə qəbul edilən qərarla müəyyənləşdirilmiş abonent haqqı hesabına maliyyələşdirilir;

8.1.3. ayrılıqda təmsil olunduğu ərazinin, bütövlükdə cəmiyyətin mənafeyinə yönəlmiş məlumatlandırıcı, maarifləndirici və əyləndirici proqramlar yayımlayır;

8.1.4. teleradio fəaliyyətinin hüquqi rejimini bu Qanunun müddəalarını nəzərə almaqla, müstəqil şəkildə müəyyənləşdirir.

8.2. Bələdiyyə yayımçısı bir və ya bir neçə yerli özünüidarəetmə orqanı tərəfindən yaxud fiziki və hüquqi şəxslərlə birlikdə təsis oluna bilər.

M a d d ə  9 . **İctimai yayımçı**

9.1. İctimai yayımçı:

9.1.1. qanunla nəzərdə tutulmuş qaydada və formada yaradılır;[10]

9.1.2. qanunla başqa hal nəzərdə tutulmayıbsa, abonent haqqı hesabına maliyyələşdirilir.

9.2. İctimai yayımçının teleradio fəaliyyəti müvafiq qanunla və həmin qanunda müəyyən olunmuş qaydada təsdiq olunan Nizamnamə ilə tənzimlənir.

M a d d ə  1 0 . **Özəl yayımçı**

10.1. Özəl yayımçı Azərbaycan Respublikasının ərazisində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları və (və ya) nizamnamə kapitalı Azərbaycan Respublikasında daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına məxsus olan hüquqi şəxslər tərəfindən təsis edilə bilər.

10.2. Özəl yayımçıların dövlət qeydiyyatı Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə həyata keçirilir.

10.3. Aşağıdakılar özəl teleradio yayımının təsisçisi ola bilməzlər:

10.3.1. ağır və ya xüsusilə ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə əvvəllər məhkum edilmiş, habelə məhkumluğu ödənilməmiş şəxslər;

10.3.2. fəaliyyət qabiliyyətsizliyi yaxud fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması məhkəmə tərəfindən təsdiq edilmiş şəxslər;

10.3.3. siyasi partiyalar;

10.3.4. dini qurumlar.

10.4. Özəl teleradio yayımçısı qanunla qadağan edilməyən bütün mənbələr hesabına maliyyələşdirilə bilər.

10.5. Özəl teleradio yayımçısının təsisçiliyində və pay sahibliyində hər hansı bir dəyişiklik zərurəti yaranarsa, bu barədə bir ay əvvəl müvafiq dövlət orqanına məlumat verilir. Müvafiq dövlət orqanı dəyişikliyin bu Qanunun tələblərinə uyğun olmasına dair iki ay müddətində rəy verdikdən sonra bu dəyişiklik edilir və bir ay ərzində yeni sənədlər müvafiq dövlət orqanına təqdim olunur.[11]

## III FƏSİL
## TELERADİO YAYIMI SAHƏSİNDƏ DÖVLƏT TƏNZİMLƏMƏSİ

M a d d ə 1 1 . **Teleradio yayımı sahəsində dövlətin əsas funksiyaları və vəzifələri**

11.1. İnformasiya məkanının vahid inkişaf konsepsiyasına uyğun olaraq dövlət:

11.1.1. teleradio fəaliyyətini tənzimləmək üçün qanunvericilik bazası yaradır;

11.1.2. məqsədli dövlət proqramları hazırlayır və həyata keçirir;

11.1.3. teleradio yayımı zamanı bu Qanuna, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına və xüsusi razılığın (lisenziyanın) qayda və şərtlərinə əməl olunmasına nəzarəti həyata keçirir;

11.1.4. teleradio yayım kanallarını (tezlikləri) istifadəyə verir.

11.2. Azərbaycan Respublikasında teleradio yayımını tənzimləyən dövlət orqanı Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq yaradılır.

11.3. Teleradio yayımı sahəsində müvafiq dövlət orqanı dövlət büdcəsindən maliyyələşdirilir və öz fəaliyyətində müstəqildir.

11.4. Müvafiq dövlət orqanı bu Qanunla müəyyənləşdirilmiş funksiyaları həyata keçirmək məqsədi ilə:

11.4.1. öz aparatını və struktur bölmələrini yaradır;

11.4.2. teleradio yayımçılarının reyestrini aparır;

11.4.3. teleradio yayımının texniki və keyfiyyət standartlarını və normalarını müəyyənləşdirir;

11.4.4. bu Qanunun tələbləri, xüsusi razılığın (lisenziyanın) qayda və şərtləri pozulduqda inzibati tənbeh tədbirləri tətbiq edir və (və ya) məhkəmə qarşısında iddia qaldırır;[12]

11.4.5. teleradio yayımına xüsusi razılıq (lisenziya) vermək məqsədi ilə müsabiqə elan edir, müsabiqənin qayda və şərtlərini hazırlayır və müsabiqəni keçirir.

11.4.6. zəruri hallarda (ictimai əhəmiyyət kəsb edən tədbirlərin, seçkilərin, mühüm əhəmiyyətli idman yarışlarının keçirilməsi zamanı və s.) xarici televiziya və radio kanallarının Azərbaycan ərazisində peyk vasitəsilə yayımı üçün icazə verir.[13]

11.5. Teleradio yayımı sahəsində müvafiq dövlət orqanı:

11.5.1. teleradio verilişlərinin ötürülməsi üçün istifadə olunan texniki yayım vasitələrinin qanunvericilikdə və xüsusi razılıqda (lisenziyada) müəyyən olunmuş qaydada və şərtlərə uyğun istismarına;

11.5.2. yayım kanalları (tezlikləri) resurslarından səmərəli istifadə olunmasına;

11.5.3. ~~uşaqların və~~ yetkinlik yaşına çatmayanların fiziki, əqli və mənəvi inkişafına ziyan vura bilən proqramların*"Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan vaxtda göstərilməməsinə (xüsusi dekoderlər vasitəsilə ödənişli əsasda həyata keçirilən informasiya məhsullarının telekanallarda yayımı istisna olmaqla) və həmin Qanunun teleradio yayımı sahəsində digər tələblərinin icrasına*;**[14]**

11.5.4. terrorizmin, zorakılığın, qəddarlığın, milli, irqi və dini ayrı-seçkiliyin təbliğinə yol verilməməsinə;

11.5.5. reklamın bu Qanunla müəyyənləşdirilmiş qaydada yayımlanmasına;

11.5.6. Azərbaycan Respublikası qanunvericiliyinin digər tələblərinin yerinə yetirilməsinə nəzarət edir.

11.6. İctimai yayımla bağlı konkret məsələlərin araşdırılması və həll edilməsi üçün ictimai yayımçının rəsmi müraciəti əsasında teleradio yayımı sahəsində müvafiq dövlət orqanına səlahiyyət verilə bilər, bu şərtlə ki, ictimai yayımın yaradıcılıq və redaksiya müstəqilliyi məhdudlaşdırılmasın.

M a d d ə 1 2 . **Dövlət orqanlarının informasiyalarının yayılması**

Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün yayımçılar insanların həyatı, sağlamlığı və yaşayış məntəqələrinin normal fəaliyyəti üçün təhlükə törədən fövqəladə hallar, təbii fəlakətlər və qəzalar barədə dövlət orqanlarının informasiyalarını dərhal və pulsuz olaraq əhaliyə çatdırmağa borcludurlar.

M a d d ə 1 2 - 1 . ***Dini ekstremizm əleyhinə xüsusi əməliyyatlar barədə ictimaiyyətə məlumatın verilməsi*****[15]**

*12-1.1. Dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması zonasında kütləvi informasiya vasitələri işçilərinin fəaliyyəti əməliyyat aparan orqan tərəfindən müəyyən edilir.*

*12-1.2. Dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat barədə ictimaiyyətə məlumatlar əməliyyat aparan orqanın müəyyən etdiyi formada və həcmdə verilir.*

*12-1.3. "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 9.3-cü maddəsində nəzərdə tutulmuş məlumatların yayılmasına yol verilmir.*

M a d d ə 1 3 . **Dövlətin ehtiyacları üçün yayım məhsulları**

13.1. Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, istənilən yayımçı və teleradio məhsullarının istehsalçısı teleradio məhsullarının istehsalı və yayımı üzrə dövlət sifarişini yerinə yetirmək hüququna malikdir. Dövlət sifarişçisi teleradio yayımı sahəsində müvafiq dövlət orqanıdır.

13.2. Teleradio məhsullarının istehsalı və yayımı üzrə dövlət sifarişi müsabiqə əsasında həyata keçirilir.

13.3. Teleradio məhsullarının istehsalı və yayımı üzrə dövlət sifarişlərinin müqavilə əsasında formalaşdırılması, yerləşdirilməsi və icrası qaydaları müvafiq dövlət orqanı tərəfindən müəyyənləşdirilir.

13.4. Dövlətin ehtiyacları üçün teleradio məhsullarının haqqının ödənilməsi dövlət büdcəsi və bu məqsədlə cəlb edilən

büdcədənkənar mənbələr hesabına təmin edilir.

13.5. Müvafiq dövlət orqanı məqsədli dövlət proqramlarına uyğun olaraq uşaqlar və gənclər, karlar və eşitmə qabiliyyəti zəif olanlar üçün proqramların, informasiya, tədris, maarifləndirici və s. proqramların siyahısını hazırlayıb bu Qanunla müəyyənləşdirilmiş qaydada sifarişlər verir.

## IV fəsil

## YAYIM ÜÇÜN XÜSUSİ RAZILIĞIN (LİSENZİYANIN) VERİLMƏSİ QAYDALARI

M a d d ə  1 4 . **Teleradio yayımı üçün xüsusi razılıq (lisenziya)**

14.1. Azərbaycan Respublikasının ərazisində teleradio yayımı bu Qanuna uyğun olaraq verilən xüsusi razılıq (lisenziya) əsasında həyata keçirilir.

14.2. Azərbaycan Respublikasında sərhədsiz televiziya yayımı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir.

14.3. Sərhədsiz televiziya proqramlarını Azərbaycan Respublikasının ərazisində yayımlamaq istəyən xarici teleradio yayımçısı xüsusi razılıq (lisenziya) almaq üçün bu Qanunla müəyyənləşdirilmiş qaydada müsabiqədə iştirak edir.

14.4. Müsabiqənin nəticələrinə görə qalib elan edilən xarici teleradio yayımçısı müvafiq icra hakimiyyəti orqanı ilə bu Qanunun 16.6-cı maddəsində müəyyənləşdirilmiş qaydada müqavilə bağlayır.

M a d d ə  1 5 . **Xüsusi razılıq (lisenziya) almaq üçün müsabiqə**

15.1. Yayım üçün xüsusi razılıq (lisenziya), dövlət və ictimai teleradio yayımı istisna olmaqla, müsabiqə əsasında verilir.

15.2. Müsabiqənin qayda və şərtləri müsabiqədə iştirak etmək barədə ərizələrin qəbul müddətinin başa çatmasından ən azı bir ay əvvəl rəsmi mətbuat orqanında dərc edilir.

15.3. Xüsusi razılıq (lisenziya) üçün müsabiqə şərtləri müəyyən olunarkən tamaşaçıların, dinləyicilərin və dövlətin mənafeyi nəzərə alınmalıdır.

15.4. Müsabiqədə iştirak etmək arzusunu bildirən ərizəçilər (bundan sonra -iddiaçılar) müsabiqə keçirən orqanın müəyyən etdiyi məbləğdə birdəfəlik haqq ödəməlidirlər.

15.5. Xüsusi razılıq (lisenziya) üçün müsabiqə keçirilərkən aşağıdakılar nəzərə alınır:

15.5.1. iddiaçının göstəricilərinin müsabiqə şərtlərinə uyğunluğu;

15.5.2. teleradio yayımını həyata keçirmək üçün iddiaçının yaradıcılıq və texniki imkanları;

15.5.3. açıq dinləmələrin və digər müsabiqə prosedurlarının nəticələri.

M a d d ə  1 6 . **Teleradio yayımlarının tezlik siyahısı**

16.1. Teleradio yayımlarının tezlik siyahısını müvafiq icra hakimiyyəti orqanı tərtib edir. Bu zaman radio xidmətləri arasında tezlik zolaqlarının bölgü cədvəli nəzərə alınmaqla Azərbaycan Respublikasının ərazisində efir məqsədi üçün istifadə edilən və istifadəsi planlaşdırılan radiotezliklərin siyahısı əsas götürülür.

16.2. Tezlik siyahısına istifadə edilən tezliklərdə fəaliyyət göstərən yayımçılar, onların xüsusi razılıqları (lisenziyaları) və yayım zonası haqqında məlumatlar da daxil edilir.

16.3. Müvafiq icra hakimiyyəti orqanı boş qalan istifadəyə yararlı efir radiotezliklərinin siyahısını ildə bir dəfədən az olmayaraq müsabiqə keçirən orqana təqdim edir.

16.4. Müvafiq icra hakimiyyəti orqanı boş qalan istifadəyə yararlı efir radiotezlikləri haqqında məlumatı həmçinin müsabiqə keçirən orqanın sorğusuna əsasən təqdim edir.

16.5. Müvafiq icra hakimiyyəti orqanı və müsabiqəni keçirən orqan tezlik siyahısını ildə bir dəfədən az olmayaraq kütləvi informasiya vasitələrində dərc etdirir.

16.6. Müsabiqənin nəticələrinə görə qalib elan edilən yayımçı texniki rabitə vasitələrindən istifadə etməklə xüsusi razılıqda (lisenziyada) göstərilən kanalda (tezlikdə) yayım aparmaq üçün müvafiq icra hakimiyyəti orqanı ilə müqavilə bağlayır və müəyyənləşdirilmiş qaydada və məbləğdə istifadə haqqı ödəyir.

16.7. Yayımçı yayımın texniki təminatı (ötürülməsi) ilə bağlı Azərbaycan Respublikasının telekommunikasiya operatoru ilə müqavilə bağlaya bilər. Bu müqavilədə, həmçinin bu Qanunun 16.6-cı maddəsində göstərilən müqavilədə tətbiq olunan tariflər müvafiq icra hakimiyyəti orqanı tərəfindən tənzimlənir. **[16]**

16.8. Qanuni əsaslar olduqda, müvafiq icra hakimiyyəti orqanı müqavilə bağlamaqdan imtina edə bilməz.

16.9. Yayımçı müqavilə bağlanılmasından əsassız olaraq imtina barədə inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək hüququna malikdir.[17]

16.10. Eyni subyekt həm yayım, həm də yayımın texniki təminatı sahəsində fəaliyyət göstərə bilər.

16.11. Teleradio yayımçısı istifadə haqqını müəyyənləşdirilmiş müddətdə ödəməzsə, müvafiq icra hakimiyyəti orqanı xüsusi razılığın (lisenziyanın) qüvvəsinin istifadə haqqı ödənilənədək dayandırılması barədə *teleradio yayımı sahəsində müvafiq dövlət orqanına müraciət edir.* **[18]**

M a d d ə  1 7 . **Xüsusi razılıq (lisenziya) alınması üçün tələb olunan sənədlər**

17.0. Xüsusi razılıq (lisenziya) almaq üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:

17.0.1. müsabiqə keçirən orqan tərəfindən müəyyən olunmuş formada ərizə;

17.0.2. iddiaçı hüquqi şəxsdirsə, proqram konsepsiyası, dövlət qeydiyyatından keçməsi barədə sənədin və nizamnaməsinin surətləri;

17.0.3. iddiaçı fiziki şəxsdirsə, proqram konsepsiyası;

17.0.4. yayımı həyata keçirmək üçün zəruri olan yaradıcılıq və texniki imkanları haqqında müsabiqə keçirən orqan tərəfindən müəyyən olunmuş formada məlumat;

17.0.5. müsabiqədə iştirak üçün birdəfəlik ödəniş haqqında sənəd;

M a d d ə  1 8 . **Sənədlərin qəbulundan və xüsusi razılıq (lisenziya) verilməsindən imtina**

18.1. Aşağıdakı hallarda iddiaçının sənədləri qəbul edilmədən geri qaytarılır:

18.1.1. ərizə buna hüququ olmayan şəxs tərəfindən verilmişdirsə;

18.1.2. eyni ad altında başqa teleradio, yayımçısı fəaliyyət göstərirsə;

18.1.3. sənədlər bu Qanunun tələblərinə və müsabiqənin şərtlərinə uyğun hazırlanmayıbsa;

18.1.4. təsisçinin nizamnamə kapitalında xarici fiziki və ya hüquqi şəxsin payı olduqda;

18.1.5. texniki və yaradıcılıq imkanları müsabiqənin şərtlərinə uyğun gəlmirsə;
18.1.6. iddiaçının teleradio yayımı üçün əvvəllər aldığı xüsusi razılığın (lisenziyanın) fəaliyyətinə xitam verilməsindən bir ildən az müddət keçibsə.
18.2. İddiaçıya sənədlərin geri qaytarılması barədə üç gün ərzində onu qane edən formada (yazılı və ya şifahi) məlumat verilir.
18.3. Sənədlərin geri qaytarılmasına səbəb olmuş nöqsanlar aradan qaldırılarsa, iddiaçı sənədlərini yenidən müsabiqəyə təqdim edə bilər, bu zaman iddiaçıdan təkrar ödəniş tələb olunmur.
18.4. Sənədləri müsabiqəyə qəbul edilmiş iddiaçılara yalnız aşağıdakı hallarda xüsusi razılı (lisenziya) verilməsindən imtina edilir:
18.4.1. müsabiqənin yekunlarına görə qalib seçilməyibsə;
18.4.2. xüsusi razılıq (lisenziya) almaq üçün verilən ərizədə və sənədlərdə həqiqətə uyğun olmayan və ya təhrif olunmuş məlumatlar varsa;
18.4.3. teleradio yayımı sahəsində inhisarçılığın qarşısının alınması ilə bağlı bu Qanundan və digər qanunvericilik aktlarından irəli gələn tələblərə əməl olunmaması barədə müvafiq icra hakimiyyəti orqanının rəyi olduqda.
18.5. Xüsusi razılıq (lisenziya) verilməsindən imtina barəsində qərar müsabiqənin nəticələrinin elan olunduğu gündən etibarən 15 gün ərzində təqdim olunur. Xüsusi razılığın (lisenziyanın) verilməsindən imtina haqqında qərar, imtinanın səbəbləri göstərilməklə, iddiaçıya yazılı şəkildə göndərilir. Bu qərarın təqdim edildiyi gündən bir ay müddətində inzibati qaydada və (və ya) məhkəməyə şikayət edilə bilər.[19]

M a d d ə 1 9 . **Xüsusi razılığın (lisenziyanın) verilməsi**

19.1. Xüsusi razılığın (lisenziyanın) verilməsi haqqında qərar müsabiqə keçirən orqan tərəfindən müsabiqənin elan olunduğu vaxtdan ən geci 60 gün sonra qəbul olunur və müsabiqənin nəticələri elan olunduğu gündən başlayaraq 15 gün müddətində təqdim edilir.
19.2. Xüsusi razılığın (lisenziyanın) forması müvafiq dövlət orqanı tərəfindən müəyyən olunur.
19.3. Xüsusi razılığın (lisenziyanın) qüvvəsi onu almış yayımçının hüquqi varislərinə yaxud təsis etdiyi digər hüquqi şəxslərə şamil edilmir.
19.4. Bu Qanun qüvvəyə minənədək verilən xüsusi razılıq (lisenziya) həmin sənəddə göstərilən müddət ərzində etibarlıdır.
19.5. Yayımçı xüsusi razılıq (lisenziya) almaq üçün müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi məbləğdə dövlət rüsumu ödəyir.

M a d d ə 2 0 . **Yayım hüququnun təminatı**

20.1. Xüsusi razılıq (lisenziya) teleradio yayımı sahəsində yeganə hüquqi sənəddir.
20.2. Dövlət və yerli özünüidarəetmə orqanları, siyasi partiyalar, ictimai birliklər, həmkarlar ittifaqı təşkilatları, fiziki və hüquqi şəxslər yayımçıların xüsusi razılıq (lisenziya) ilə müəyyənləşdirilmiş hüquqlarını məhdudlaşdıra bilməzlər.
20.3. Xüsusi razılıq (lisenziya) müvafiq icra hakimiyyəti orqanı ilə, habelə digər fiziki və hüquqi şəxslərlə teleradio yayımı sahəsində müqavilələr bağlamaq üçün əsasdır.

M a d d ə 2 1 . **Xüsusi razılığın (lisenziyanın) məzmunu**

21.1. Xüsusi razılıqda (lisenziyada) aşağıdakı məlumatlar göstərilir:
21.1.1. teleradio yayımçısının adı, təşkilati-hüquqi forması və olduğu yer;
21.1.2. yayımın növü (televiziya yayımı, radio yayımı, əlavə yayım və s.);
21.1.3. yayım üsulu (kabelli, peyk vasitəsi ilə, internet, efir, efir-kabel və s.);
21.1.4. yayım zonası;
21.1.5. teleradio yayımının efirə çıxacağı vaxt;
21.1.6. xüsusi razılığın (lisenziyanın) qüvvədə olma müddəti;
21.1.7. xüsusi razılığın (lisenziyanın) qeydiyyat nömrəsi və verilmə tarixi;
21.1.8. teleradio yayımının tezliyi və bu tezlikdə teleradio proqramını yayımlayan ötürücünün gücü;
21.1.9. ötürücünün yerləşdiyi yer;
21.1.10. nəzərdə tutulan auditoriya;
21.1.11. teleradio yayımının dili (dilləri);
21.1.12. teleradio yayımının dövriliyi, həcmi;
21.1.13. yayımın başlama tarixi;
21.1.14. xüsusi razılığın (lisenziyanın) qayda və şərtləri pozulduğu hallarda yayımçının məsuliyyəti.
21.2. Teleradio yayımçısının ərizəsində göstərilən və xüsusi razılığa (lisenziyaya) daxil edilən məlumatlar dəyişdiyi gündən başlayaraq ən geci 30 gün ərzində müvafiq dövlət orqanına xəbər verilməlidir.
21.3. Teleradio yayımçısı xüsusi razılıqda (lisenziyada) göstərilən digər məlumatları müvafiq dövlət orqanı ilə razılaşdırmadan dəyişdirə bilməz.

M a d d ə 2 2 . **Xüsusi razılığın (lisenziyanın) qüvvədə olma müddəti**

22.1. Ərizədə daha az müddət göstərilməyibsə, xüsusi razılıq (lisenziya) 6 il müddətinə verilir. Bu müddətdə ayrılan tezlikdən istifadə texniki baxımdan mümkün deyilsə, xüsusi razılıq (lisenziya) daha az müddət üçün verilə bilər.
22.2. Müsabiqə keçirən orqan xüsusi razılığa (lisenziyaya) ayrılan müddətin bitməsinə ən geci üç ay qalmış boşalan tezlik resursu barədə məlumatı dərc edir.
22.3. Boşalan tezlik resursundan istifadə edən və xüsusi razılığın (lisenziyanın) müddətini uzatmaq istəyən teleradio yayımçısı xüsusi razılığın (lisenziyanın) vaxtını uzatmaq barədə xüsusi razılığın (lisenziyanın) müddətinin bitməsinə azı 6 ay qalmış ərizə verdikdə, bu tezlik üçün müsabiqə keçirilmədən dövlət rüsumunu ödəmək şərti ilə xüsusi razılığın (lisenziyanın) müddəti daha 6 il uzadılır.[20]
22.4. Yayımçı xüsusi razılığın (lisenziyanın) qüvvədə olduğu müddətdə qanunvericiliyin tələblərini dəfələrlə pozmuşdursa və müvafiq dövlət orqanının xəbərdarlığına baxmayaraq həmin pozuntular qısa müddətdə aradan qaldırılmamışdırsa və ya yayımçı barədə dəfələrlə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada müvafiq məsuliyyət tədbirləri tətbiq olunmuşdursa, boşalan tezlik resursundan istifadə etməklə xüsusi razılıq (lisenziya) almaq üçün bu Qanunla müəyyənləşdirilmiş qaydada müsabiqə elan edilir.[21]

M a d d ə 2 3 . **Xüsusi razılığın (lisenziyanın) qüvvəsinin müvəqqəti dayandırılması və xüsusi razılığın (lisenziyanın) qüvvəsinə xitam verilməsi**[22]

*23.1. Teleradio yayımçıları xüsusi razılığın (lisenziyanın) qayda və şərtlərini və ya bu Qanunun tələblərini pozduqda,*

*xüsusi razılığın (lisenziyanın) qüvvəsi və ya hər hansı proqramın yayımı teleradio yayımı sahəsində müvafiq dövlət orqanının qərarı ilə bir ayadək müddətə müvəqqəti dayandırılır.*

*23.2. Xüsusi razılığın (lisenziyanın) qüvvəsinə teleradio yayımı sahəsində müvafiq dövlət orqanının qərarı ilə aşağıdakı hallarda xitam verilir:*

*23.2.1. xüsusi razılığın (lisenziyanın) sahibi həmin məqsədlə ərizə təqdim etdikdə;*

*23.2.2. xüsusi razılıq (lisenziya) yayımçının bilərəkdən təqdim etdiyi həqiqətə uyğun olmayan məlumatlar əsasında alındıqda;*

*23.2.3. yayım xüsusi razılıq (lisenziya) alındıqdan sonra altı ay müddətində həyata keçirilmədikdə;*

*23.2.4. xüsusi razılıqda (lisenziyada) müəyyən edilmiş yayım zonası bir il müddətində tam təmin edilmədikdə;*

*23.2.5. xüsusi razılığın (lisenziyanın) sahibinin müflisləşməsi məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi ilə təsdiq olunduqda;*

*23.2.6. teleradio yayımı texniki cəhətdən mümkün olmadıqda;*

*23.2.7. yayım ardıcıl olaraq 30 gün və ya bir il ərzində 60 gün əsassız həyata keçirilmədikdə;*

*23.2.8. yayımçı bir il müddətində azı üç dəfə teleradio yayımı sahəsində məsuliyyətə cəlb edildikdə;*

*23.2.9. xüsusi razılığın (lisenziyanın) sahibi olan hüquqi şəxs ləğv edildikdə və ya fiziki şəxs vəfat etdikdə.*

*23.3. Teleradio yayımı sahəsində müvafiq dövlət orqanının xüsusi razılığın (lisenziyanın) qüvvəsinin müvəqqəti dayandırılması və ya qüvvəsinə xitam verilməsi barədə qərarından şikayət həmin qərarın qüvvəyə mindiyi gündən 30 gün müddətində məhkəməyə verilir.*

*23.4. Dövlət quruluşunu zorakılıqla devirməyə, dövlətin bütövlüyünə və ölkənin təhlükəsizliyinə qəsd etməyə, milli, irqi və dini ədavəti qızışdırmağa, kütləvi iğtişaşlar törətməyə və terrorizmə açıq çağırışlar teleradio yayımçısı tərəfindən müdafiə olunduqda və ya bu çağırışları səsləndirməyə bilərəkdən şərait yaradıldıqda, xüsusi razılığın (lisenziyanın) qüvvəsinə teleradio yayımı sahəsində müvafiq dövlət orqanının iddiası əsasında məhkəmənin qərarı ilə xitam verilir.*

*23.5. Teleradio yayımı zamanı bu Qanunun tələblərinin və ya xüsusi razılığın (lisenziyanın) qayda və şərtlərinin pozulması ilə bağlı iddia ərizəsinə məhkəmə tərəfindən, iddia ərizəsinin təqdim edildiyi gündən ən geci 15 gün müddətində baxılır və məhkəmə aktı qəbul edilir.*

M a d d ə 2 4 . **Əlavə informasiya yayımı hüququ**

Yayımçı əlavə informasiya xidmətləri göstərə bilər. Teleradio yayım siqnalının tərkibində ötürülən və əsas proqramlarla heç bir əlaqəsi olmayan əlavə informasiya xidməti xüsusi razılıq (lisenziya) əsasında həyata keçirilir.

M a d d ə 2 5 . **Teleradio yayımının texniki vasitələrinin və avadanlıqlarının sertifikatlaşdırılması**

Teleradio yayımının maddi-texniki bazasını təşkil edən, teleradio proqramlarının hazırlanması, istehsalı, formalaşdırılması və yayımlanmasını təmin edən texniki vasitələr və avadanlıqlar (dövlət standartlarına və beynəlxalq standartlara uyğunluğu məqsədilə) Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada sertifikatlaşdırılır.

V f ə s i l

## TELERADİO YAYIMININ TƏŞKİLİ

M a d d ə 2 6 . **Teleradio proqramlarının yayımlanma şərtləri**

26.1. Yayımçı:

26.1.1. yayım üçün xüsusi razılıq (lisenziya) aldıqdan;

26.1.2. teleradio yayımçısı kimi reyestrdən keçdikdən;

26.1.3. texniki rabitə vasitələrindən istifadə etməklə xüsusi razılıqda (lisenziyada) göstərilən kanal və tezlikdə yayım aparmaq üçün müvafiq icra hakimiyyəti orqanı ilə müqavilə bağladıqdan sonra yayım fəaliyyətinə başlaya bilər.

26.2. Yayımın texniki vasitələrinin sahibi və ya onun istismarını həyata keçirən təşkilat həmin vasitələri yayım üçün xüsusi razılığı (lisenziyası) olmayan üçüncü şəxsin istifadəsinə verə bilməz.

26.3. Yayım ancaq xüsusi razılıqda (lisenziyada) müəyyən edilmiş tezlikdə və yayım zonasında aparıla bilər.

26.4. Teleradio proqramlarının (verilişlərinin) retranslyasiyası yayımçı ilə retranslyasiyanı aparan qurum arasında bağlanmış müqavilə əsasında həyata keçirilir.

26.5. Proqramın (verilişin) yayımına teleradio yayımının rəhbəri və ya onun təyin etdiyi şəxs (məsul redaktor) icazə verir, həmin şəxs proqramın (verilişin) keyfiyyətinə və məzmununa görə məsuliyyət daşıyır.

M a d d ə 2 7 . **Teleradio məhsullarının istehsalı**

27.1. Teleradio məhsulları, o cümlədən əlavə informasiya bu məqsədlə yaradılmış teleradio məhsullarının istehsalçısı yaxud yayımçının özü tərəfindən hazırlanır.

27.2. Yayımçı ilə teleradio məhsullarının istehsalçısı arasındakı münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada bağlanmış müqavilə ilə tənzimlənir.

M a d d ə 2 8 . **İstinad məlumatları**

28.1. Yayımçı, gün ərzində yayım aparılırsa, azı dörd dəfə, başqa hallarda isə yayımın əvvəlində və sonunda öz adını və başqa məlumatları (çağırış kodunu, emblemini və s.) elan etməlidir.

28.2. Hər bir teleradio verilişi və ya onun təkrarı efirə buraxılarkən aşağıdakı məlumatlar əlavə olunmalıdır:

28.2.1. verilişin adı;

28.2.2. verilişin efir vaxtı;

28.2.3. müəllifin və efirə buraxılış üçün icazə vermiş baş redaktorun (redaktorun) adı və soyadı;

28.2.4. yayımçının adı və ünvanı;

28.2.5. yayımçının müəyyənləşdirdiyi digər məlumatlar.

M a d d ə 2 9 . **Peyk vasitəsilə teleradio yayımı**

29.1. Peyk vasitəsilə teleradio yayımı aşağıdakı üstün istiqamətlər üzrə həyata keçirilir:

29.1.1. fərdi abonentlər və kollektiv bölüşdürücü şəbəkələr tərəfindən qəbul edilməsi üçün ümumölkə yayımçılarının proqramlarının yayımı;

29.1.2. ölkə və xarici dövlətlərin teleradio yayımçıları ilə proqramların (verilişlərin) mübadiləsi.

29.2. Peyk vasitəsilə teleradio yayımının qaydaları müvafiq dövlət orqanı tərəfindən müəyyən edilir.

M a d d ə  3 0 . **Kabel şəbəkəsi yayımı**

30.1. Kabel şəbəkəsi yayımı Azərbaycan Respublikasının qanunu ilə tənzimlənir.

30.2. Kabel şəbəkəsi yayımı müvafiq dövlət orqanı tərəfindən tənzimlənir.

30.3. Kabel şəbəkəsinin yaradılması, inkişafı, təkmilləşdirilməsi, kabel yayım siqnalları sisteminin istismarı, tezlik və kanalların istifadəyə verilməsi müvafiq dövlət orqanı və müvafiq icra hakimiyyəti orqanı tərəfindən birlikdə həyata keçirilir.

M a d d ə  3 1 . **Seçki (referendum) kampaniyası zamanı televiziya və radiodan istifadə qaydaları**[23]

Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Prezidentinin və bələdiyyə üzvlərinin seçkiləri zamanı qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar blokunun, habelə referendum zamanı referendum üzrə təşviqat qrupunun efirdən istifadə qaydaları Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə tənzimlənir.

M a d d ə  3 2 . **Proqrama verilən tələblər**

32.0. Proqramlar yayım üçün hazırlanarkən aşağıdakı tələblərə əməl olunmalıdır:

32.0.1. maarifçilik və mədəniyyət məsələlərinə üstünlük verilməli, proqramların tarazlaşdırılması yolu ilə efirin kommersiya, informasiya, yaxud digər eynitipli verilişlərlə yüklənməsinin qarşısı alınmalıdır;

32.0.2. hər kəsin öz fikir və baxışlarını sərbəst şəkildə ifadə etmək hüququna şərait yaradılmalıdır, bu şərtlə ki:

32.0.2.1. informasiyanın tərəfsizliyi, qərəzsizliyi, əhatəliliyi, tam və doğru-dürüstlüyü prinsiplərinə əməl olunsun;

32.0.2.2. proqramı hazırlayanlar qanun qarşısında birbaşa məsuliyyət daşısınlar;

32.0.3. insanların şərəf və ləyaqətinin alçaldılmasına, işgüzar nüfuzunun ləkələnməsinə yol verilməməli, şəxslərin Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyənləşdirilmiş hüquq və azadlıqlarına hörmətlə yanaşılmalıdır;

32.0.4. faktlar və hadisələr ədalətli şərh olunmalı, birtərəfliliyə yol verilməməlidir;

32.0.5. terrorizm, zorakılıq, qəddarlıq, milli, dini və irqi ayrı-seçkilik təbliğ olunmamalıdır;

32.0.6. proqramlarda (verilişlərdə) dövlət dilindən istifadə təmin *olunmalı və dövlət dili normalarına riayət edilməlidir*;[24]

32.0.7. teleradio yayımı sahəsində dövlət texniki standartlarına əməl olunmalıdır;

32.0.8. karlar və zəif eşidənlər üçün tədris və informasiya xarakterli sosial yayımlar təşkil olunmalıdır;

32.0.9. milli-mənəvi dəyərlərin qorunmasına ardıcıl şəkildə əməl olunmalıdır;

32.0.10. dövlət və ictimai teleradio yayımçıları tərəfindən insanın immunçatışmazlığı virusu infeksiyasının profilaktikası barədə maarifləndirici verilişlərin, sosial reklam çarxlarının nümayişi üçün ayda 20 dəqiqədən az olmayan efir vaxtı ayrılmalı və həmin verilişlərin daha əlverişli vaxtda yayımı təmin edilməlidir.[25]

*Maddə 32-1.* ***Teleradio yayımında dövlət dilindən istifadənin və dövlət dili normalarına riayət edilmənin təmin olunması***[26]

*Teleradio yayımı sahəsində dövlət dilindən istifadənin və dövlət dili normalarına riayət edilmənin təmin olunması ilə bağlı qaydaları müvafiq dövlət orqanı müəyyənləşdirir.*

M a d d ə  3 3 . ***Yetkinlik*** **yaşına çatmayanların qorunması**[27]

*Uşaqların yaşına uyğun informasiya əldə etmək hüququnun həyata keçirilməsi ilə əlaqədar olaraq onların zərərli informasiyadan qorunması “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada həyata keçirilir.*[28]

M a d d ə  3 4 . **Teleradio yayımı sahəsində ictimai birliklər**

34.1. Yayımçılar, istehlakçılar və teleradio məhsullarının istehsalçıları öz maraqlarını qorumaq məqsədi ilə Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada ictimai birliklər yarada bilərlər.

34.2. Bu ictimai birliklər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada qeydiyyata alınmış Nizamnamələri əsasında fəaliyyət göstərirlər.

34.3. Müvafiq dövlət orqanı xüsusi razılığın (lisenziyanın) qayda və şərtlərinə əməl olunması üzərində nəzarəti həyata keçirərkən bu ictimai birliklərin rəyini nəzərə alır.

M a d d ə  3 5 . **Reklamın yayılması**

35.1. Teleradio proqramlarında (verilişlərində) yayımlanan reklam və teleticarət asan başa düşülən olmalı və həmin proqramların (verilişlərin) elementlərindən vizual və (və ya) akustik şəkildə (görüntülü və (və ya) səsli) fərqlənməlidir.

*35.1-1. Reklamda “Dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarına riayət edilməlidir.*[29]

35.2. Texniki və digər vasitələrdən istifadə etməklə hazırlanmış, istehlakçının şüuruna özünün dərk etmədiyi şəkildə təsir göstərən gizli reklamın yayımlanması qadağandır.

35.3. Reklam və teleticarət ayrı-ayrı verilişlərin arasına blok şəklində salınmalıdır. Reklam bir verilişin yayımı zamanı da göstərilə bilər, bu şərtlə ki, bu Qanunun 35.4-cü və 35.5-ci maddələri ilə müəyyənləşdirilmiş qaydalara əməl olunsun.

35.4. Müstəqil hissələrdən ibarət televerilişlərdə, idman proqramlarında, fasilələrlə gedən tədbirlərin və tamaşaların yayımında reklam yalnız müstəqil hissələrin arasında, ya da fasilələrdə verilə bilər. Ayrıca verilişlərdə bir reklam blokunun sonu ilə o biri reklam blokunun əvvəli arasındakı zaman kəsiyi 15 dəqiqədən az olmamalıdır.[30]

35.5. Bədii və televiziya filmləri 45 dəqiqədən çox davam edərsə, yalnız 45 dəqiqədən sonra reklamla kəsilə bilər. Filmlər bir və ya bir neçə 45 dəqiqədən azı 20 dəqiqə çox çəkərsə daha bir reklam fasiləsinə icazə verilir.

35.6. Xəbər proqramları, dini və uşaqlar üçün verilişlər, həmçinin 30 dəqiqədən az çəkən seriallar, əyləncəli proqramlar, aktual siyasi verilişlər, sənədli filmlər reklamla kəsilə bilməz. Əgər bu proqram və verilişlər 30 dəqiqədən çox çəkərsə, bu Qanunun 35.4-cü, bir və ya bir neçə 45 dəqiqədən ən azı 20 dəqiqə çox çəkərsə, bu Qanunun 35.5-ci maddələrinin tələbləri onlara da şamil edilir.

35.7. Reklamın və teleticarətin ümumi həcmi bir saatda 12 dəqiqədən çox ola bilməz.[31]

35.8. Yayım zamanı teleticarət üçün ayrılmış blokun fasiləsiz həcmi bir saatda 10 dəqiqədən, gün ərzində belə blokların sayı isə 6-dan çox ola bilməz.[32]

35.9. (Çıxarılıb)[33]

35.10. Televiziya və radio ilə narkotik vasitələrin, psixotrop maddələrin, silahların, pornoqrafiyanın, tütün məmulatlarının, Azərbaycan Respublikasının qanunvericiliyi ilə reklamı qadağan olunan digər məhsulların, habelə saat 7.00-dan saat 23.00-dək spirtli içkilərin reklamına yol verilmir. [34]

35.11. Qanunvericilikdə müəyyən olunmuş qaydada istehsalına və satışına icazə verilməyən tibb vasitələrinin reklam qadağandır. Xidmət göstərilməsinə müvafiq icra hakimiyyəti orqanı tərəfindən icazə verilməyən müalicə metodlarının, profilaktika, diaqnostika və reabilitasiyanın (hətta onlar patent alsalar belə), reklamına yol verilmir. [35]

35.12. Həkim resepti əsasında buraxılan dərman vasitələrinin reklamı qadağandır. Həkim resepti olmadan buraxılan dərman vasitələrinin reklamı zamanı "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 16-1-ci maddəsinin tələbləri nəzərə alınmalıdır.[36]

35.13. Televiziya reklamlarında:

35.13.1. insanların ləyaqətinə, dini və siyasi əqidəsinə;

35.13.2. sağlamlığına və təhlükəsizliyinə;

35.13.3. ətraf mühitin qorunmasına ziyan vuran hərəkətlərin təqdim olunması qadağandır.

35.14. Televiziya reklamları ~~uşaqların və~~ yetkinlik yaşına çatmayanların fiziki, əqli və mənəvi inkişafına zərərli təsir göstərməməlidir. Bunun üçün həmin reklamlarda *"Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla aşağıdakılara* əməl olunmalıdır: [37]

35.14.1. ~~uşaqlara və~~ yetkinlik yaşına çatmayanlara ünvanlanan yaxud onların iştirakı ilə yayımlanan reklamlarda *onların* maraqlarına ciddi zərbə vuran elementlərdən istifadə olunmamalı; [38]

35.14.2. tutarlı səbəblər olmadan, ~~uşaqlar və~~ yetkinlik yaşına çatmayanlar qorxulu vəziyyətlərdə göstərilməməlidir. [39]

35.15. Aşağıdakılar reklam sayılmır:

35.15.1. yayımçıların öz məhsullarının anonsu;

35.15.2. kommunal xidməti təşkilatlarının və xeyriyyəçilərin yayımladıqları elanlar.

35.16. Azərbaycan Respublikası Milli Məclisi sessiyalarının, rəsmi dövlət tədbirlərinin, Azərbaycan Respublikası Prezidentinin, Milli Məclis və Konstitusiya Məhkəməsi sədrlərinin çıxışları reklam materiallarının verilməsi məqsədi ilə kəsilə bilməz, habelə reklam materialları titrlər vasitəsilə yayımlana bilməz.

M a d d ə 3 6 . **Teleradio verilişlərinin (proqramlarının) hazırlanmasında sponsorluq**

36.1. Teleradio məhsulu dövlət və yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxsləri tərəfindən maliyyələşdirilə bilər.

36.2. Reklamı qadağan olunmuş məhsulların istehsalçılarının və satışını həyata keçirən şəxslərin sponsorluğuna yol verilmir.

36.3. Xarici ölkələrin hüquqi və fiziki şəxsləri teleradio məhsullarına qismən (ayrı-ayrı verilişlərə və ya proqramlara) sponsorluq edə bilərlər.

36.4. Sponsorun maliyyə yardımı ilə hazırlanmış verilişlərin (proqramların) əvvəlində və sonunda firma nişanını göstərməklə yaxud titrlər və ya diktor mətni vasitəsi ilə bu barədə açıq informasiya verilməlidir. Tərəflər arasında bağlanmış müqavilələrdə sponsorun elan edilməsinin başqa üsulları da müəyyən edilə bilər.

36.5. Xəbərlərin buraxılışı və siyasi informasiya proqramları sponsorların maliyyə köməyi ilə hazırlana bilməz.

36.6. Sponsorların teleradio yayımçılarının müstəqilliyinə, yaradıcı və redaksiya fəaliyyətinə müdaxiləsi yolverilməzdir.

M a d d ə 3 7 . **Müxbir məntəqələrinin, filial və nümayəndəliklərin yaradılması**

37.1. Yayımçılar Azərbaycan Respublikasının ərazisində və onun hüdudlarından kənarda müxbir məntəqələri, filial və nümayəndəliklər yarada bilərlər.

37.2. Müxbir məntəqələri, filial və nümayəndəliklər teleradio yayımçılarının struktur bölmələridir və onların mənafeyini təmsil edir.

37.3. Yayımçı bütün ölkə ərazisində ona verilmiş tezlikdə yalnız bir proqram yayımlaya bilər. [40]

M a d d ə 3 8 . **Teleradio proqramları (verilişləri) materiallarının saxlanılması**

38.1. Teleradio proqramlarının (verilişlərinin) materialları (qoşma sənədlər, əlyazmalar, məktublar, lent yazılan və s.) efirə çıxandan sonra azı bir ay, qeydiyyat jurnalı isə sonuncu qeyddən sonra azı bir il müddətində saxlanılır.

38.2. Bir ay ərzində proqram (veriliş) barədə şikayət daxil olubsa yaxud məhkəmə qarşısında iddia qaldırılıbsa, proqramın (verilişin) materialları mübahisə başa çatanadək saxlanılmalıdır.

38.3. Proqram (veriliş) materiallarının saxlanma qaydaları yayımçı tərəfindən müəyyənləşdirilir.

38.4. Qeydiyyat jurnalında efirə çıxmış proqramların (verilişlərin) tarixi, vaxtı, mövzusu, müəllifi, aparıcısı və iştirakçıları göstərilməlidir.

38.5. Seçkiqabağı təşviqata aid teleradio proqramlarının video və audio yazısı aparılır, həmin yazılar efirə çıxdığı gündən 12 ay müddətində müvafiq teleradio verilişləri təşkilatları tərəfindən qorunub saxlanılır. Teleradio verilişləri təşkilatları pulsuz və ödənişli efir vaxtının verilməsinə aid hesabat sənədlərini səsvermə günündən başlayaraq 5 il müddətində saxlamalıdırlar. [41]

## V I f ə s i l

## YAYIMÇILARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

M a d d ə 3 9 . **Yayımçıların müəlliflik hüququ**

39.1. Yayımçılar yayımladıqları verilişlər (filmlər) və proqramlar üzərində imzaladıqları müqavilələrin verdiyi səlahiyyət çərçivəsində müəlliflik hüququna malikdirlər.

39.2. Yayımçı digər teleradio yayımçılarının proqramlarından (verilişlərindən) yalnız onların rəsmi razılığı ilə istifadə edə bilər.

39.3. Mülkiyyətçinin razılığı olmadan proqramların (verilişlərin) digər təşkilatlar tərəfindən yayımı, keçirilməsi (tirajının çoxaldılması), satılması və kütləvi nümayişi qadağandır.

39.4. Başqa yayımçıların proqramlarından (verilişlərindən) qısa fraqmentlər, - hər proqramdan (verilişdən) 20 saniyədən, hər filmdən 5 dəqiqədən çox olmamaqla, - habelə tədris müəssisələrində istifadə üçün götürüldüyü hallarda razılıq tələb olunmur.

39.5. Proqramlardan (verilişlərdən) müvafiq razılıq olmadan bu Qanunun tələblərini pozaraq istifadə edildikdə, yayımçı vurulmuş zərərin ödənilməsi barədə məhkəmə qarşısında iddia qaldıra bilər.

39.6. Bu Qanunun tələblərini pozmuş yayımçı ona tətbiq edilmiş müvafiq məsuliyyət tədbirinin məzmunu barədə məlumatı müvafiq dövlət orqanı tərəfindən müəyyən edilmiş vaxt ərzində özünün televiziya və radio kanalında yayımlamağa borcludur.[42]

M a d d ə 4 0 . **Yayımçıların hüquq və vəzifələri**

40.1. Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq teleradio yayımçıları:

40.1.1. proqramlar (verilişlər) hazırlamaq, yayımlamaq, onların audio və videoyazılarını çoxaltmaq, satmaq və ya icarəyə vermək;

40.1.2. ödəniş haqqını müəyyən etmək;

40.1.3. reklam fəaliyyəti ilə məşğul olmaq;

40.1.4. öz verilişlərinin proqramını dərc etmək və ya bu hüququ üçüncü şəxsə vermək;

40.1.5. nizamnamə vəzifələrini yerinə yetirmək üçün zəruri və qanunla qadağan edilməyən digər fəaliyyətlə məşğul olmaq hüququna malikdirlər.

40.2. Teleradio yayımçılarının vəzifələri aşağıdakılardır:

40.2.1. proqramların (verilişlərin) mövzu rəngarəngliyini təmin etmək;

*40.2.1-1. Azərbaycan Respublikasının Dövlət Himnini hər səhər Azərbaycan Respublikasının televiziya və radio yayımlarının əvvəlində "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinə uyğun olaraq səsləndirmək;*[43]

40.2.2. pornoqrafik materialları yaymamaq;

*40.2.2-1. tütün məmulatlarını və tütün istifadəsi prosesini nümayiş etdirməmək, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirildiyi əsərləri, tamaşaları, proqramları efirdə, kabel yayımı vasitəsilə açıq yayımlamamaq;*[44]

*40.2.2-2. informasiya məhsulunun "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada yaşa görə təsnifatlaşdırılmasını təmin etmədən, o cümlədən həmin Qanunla müəyyən edilmiş hallar istisna olmaqla informasiya məhsulunu müvafiq yaş kateqoriyasına uyğun işarələmədən ölkə ərazisində yayımlamamaq;*[45]

40.2.3. başqa teleradio yayımçılarının verilişlərinin yayımlanmasına və qəbuluna maneçilik törətməmək;

40.2.4. insanların şəxsi və ailə həyatına, işgüzar nüfuzuna, şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;[46]

40.2.5. yayım zamanı peşə etikasına riayət etmək;

*40.2.5-1. proqramlarda (verilişlərdə) dövlət dilindən istifadəni və dövlət dili normalarına riayət edilməni təmin etmək;*[47]

40.2.6. abonentlərin cavabvermə hüququna hörmətlə yanaşmaq;

40.2.7. nəzarət fonoqramlarının surətini müvafiq dövlət orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada və müddətdə təqdim etmək;

40.2.8. hər kəsin öz fikir və baxışlarını sərbəst şəkildə bildirməsi üçün şərait yaratmaq;

40.2.9. informasiyanın qərəzsizliyini və tərəfsizliyini təmin etmək;

40.2.10. bu Qanunla müəyyənləşdirilmiş digər vəzifələri yerinə yetirmək.

*40.3. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq teleradio yayımçıları tütündən istifadənin və sağlamlığa zərər vuran digər vərdişlərin mənfi təsiri barədə müvafiq icra hakimiyyəti orqanlarının, elm müəssisələrinin və qeyri-hökumət təşkilatlarının dəstəyi ilə xəbərdaredici, maarifləndirici və tərbiyəvi mövzuda verilişlər hazırlayır və bu mövzulara ayda 90 dəqiqədən az olmayan efir vaxtı ayırırlar. Bu verilişlərin 45 dəqiqəsi saat 17.30 - 23.00 arasında olmaqla, saat 08.00 - 23.00 arasında yayımlanır və verilişlərin surəti hər ay Milli Televiziya və Radio Şurasına təhvil verilir.*[48]

## V I I f ə s i l

## TELEVİZİYA VƏ RADİO YAYIMI HAQQINDA QANUNVERİCİLİYİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT

M a d d ə 4 1 . **Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyırlar.

M a d d ə 4 2 . **Maddi və mənəvi zərərin ödənilməsi**

Teleradio yayımı haqqında qanunvericiliyin pozulması nəticəsində fiziki və ya hüquqi şəxsə dəymiş maddi və mənəvi zərər Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun olaraq məhkəmə tərəfindən müəyyənləşdirilir. Teleradio yayımçılarının hüquqi və fiziki şəxslərə vurduğu mənəvi zərərin son həddi teleradio yayımçısının üç aylıq əmək haqqı fondundan çox müəyyənləşdirilə bilməz.

M a d d ə 4 3 . **Məsuliyyətdən azad edilmə halları**

Teleradio yayımçısı həqiqətə uyğun olmayan informasiyanın yayılmasına görə məsuliyyətdən yalnız kütləvi informasiya vasitələri haqqında qanunvericilikdə nəzərdə tutulmuş hallarda azad olunur.

M a d d ə 4 4 . **Qanunun qüvvəyə minməsi**

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 iyun 2002-ci il
345-IIQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 30 dekabr 2003-cü il tarixli 569-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-**

**cü il, 1, maddə 10**)

2. 4 mart 2005-ci il tarixli 856-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 4, maddə 278**)
3. 22 aprel 2005-ci il tarixli 897-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 6, maddə 469**)
4. 20 oktyabr 2006-cı il tarixli 170-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 932**)
5. 20 oktyabr 2006-cı il tarixli 167-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1005**)
6. 17 aprel 2007-ci il tarixli 313-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 560**)
7. 22 may 2007-ci il tarixli 348-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 8, maddə 749**)
8. 9 oktyabr 2007-ci il tarixli 430-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1053**)
9. 3 aprel 2009-cu il tarixli 784-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 26 iyun 2009-cu il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 394)**
10. 22 iyun 2010-cu il tarixli 1047-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 18 iyul 2010-cu il, 153 Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-ci il, 7, maddə 600** )
11. 21 dekabr 2010-cu il tarixli **37-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 19 fevral 2011-ci il, 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 70)**
12. 24 fevral 2015-ci il tarixli **1213-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 4 aprel 2015-ci il, 069 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 4, maddə 354)**
13. 28 oktyabr 2016-cı il tarixli **369-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 14 dekabr 2016-cı il, 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 1987)**
14. 15 dekabr 2017-ci il tarixli **943-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 4 fevral 2018-ci il, 26 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 153)**
15. 1 may 2018-ci il tarixli **1108-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 1 iyul 2018-ci il, 143, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1167)**
16. 2 noyabr 2018-ci il tarixli **1328-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 13 dekabr 2018-ci il, 281 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2477)**
17. 19 noyabr 2019-cu il tarixli **1692-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 22 dekabr 2019-cu il, 285 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1882)**
18. 8 may 2020-ci il tarixli **93-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 25 iyun 2020-ci il, 121 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 671)**
19. 8 may 2020-ci il tarixli **95-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 2 iyun 2020-ci il, 103 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 673)**

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

-

---

[1] 22 aprel 2005-ci il tarixli 897-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 6, maddə 469**) ilə 1.0.4-cü maddənin ikinci cümləsinə “ **Bu anlayışa həmçinin”** sözlərindən sonra “**yayımın kodlaşdırılmış qurğulardan (kartlardan) istifadə etməklə hüquqi və fiziki şəxslər tərəfindən peyk vasitəsilə həyata keçirilməsinin təmin edilməsi və**” sözləri əlavə edilmişdir.

[2] 22 aprel 2005-ci il tarixli 897-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 6, maddə 469**) ilə 1.0.5-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1.0.5. **retranslyasiya** - texniki vasitələrdən asılı olmayaraq teleradio yayımçısının qeyri-məhdud sayda şəxsə ötürdüyü teleradio proqramlarının (verilişlərinin) qismən yaxud tam və dəyişdirilmədən qəbulu və eyni vaxtda yenidən yayımlanması;~~

-

[3] 20 oktyabr 2006-cı il tarixli 170-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 932**) ilə 1.0.6-cı maddədə “və elektromaqnit rabitə vasitələri (kabel, optik və radio əlaqəsi)” sözləri “və ya elektromaqnit rabitə vasitələri (kabel, optik və radio əlaqəsi və digər vasitələr)” sözləri ilə, “ötürülməsi” sözü “məsafəyə ötürülməsi” sözləri ilə əvəz edilmişdir.

[4] 22 aprel 2005-ci il tarixli 897-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 6, maddə 469**) ilə 1.0.13-cü maddədə **“və yayımlamaq səlahiyyəti olan yaxud yayımın üçüncü şəxs vasitəsilə”** sözləri “**və ya yayımlamaq səlahiyyəti olan, yaxud yayımın retranslyasiyası siqnallarının kodlarını açan qurğu və vasitələrin köməyi ilə**” sözləri ilə əvəz edilmişdir.

[5] 1 may 2018-ci il tarixli **1108-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 1 iyul 2018-ci il, 143, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1167)** ilə 2.2-ci maddədə “**Teleradio**” sözü “**Bu Qanunun 2.2-1-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla teleradio**” sözləri ilə əvəz edilmişdir.

[6] 1 may 2018-ci il tarixli **1108-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 1 iyul 2018-ci il, 143, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1167)** ilə yeni məzmunda 2.2-1-ci maddə əlavə edilmişdir.

[7] 4 mart 2005-ci il tarixli 856-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 4, maddə 278**) ilə 2.5- ci maddə əlavə edilmişdir.

1 may 2018-ci il tarixli **1108-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 iyul 2018-ci il, 143, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1167**) ilə 2.5-ci maddəyə "**Fövqəladə**" sözündən sonra "**və hərbi**" sözləri əlavə edilmişdir.

[8] 20 oktyabr 2006-cı il tarixli 167-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1005**) ilə 3-cü maddədə "**şəxsi**" sözündən sonra "**və ailə**" sözü əlavə edilmişdir.

[9] 22 aprel 2005-ci il tarixli 897-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 6, maddə 469**) ilə 7.0.4-cü maddə çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~7.0.4. müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş Əsasnamə ilə fəaliyyət göstərir.~~

[10] 22 aprel 2005-ci il tarixli 897-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 6, maddə 469**) ilə 9.1.1-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~9.1.1. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq yaradılır və Yayım şurasına namizədlər siyasi fəaliyyətlə məşğul olmayan, üzvlərinin sayı min nəfəri ötən qeyri-kommersiya təşkilatları, ictimai, yaradıcı, dini və vətəndaş birlikləri, habelə Milli Elmlər Akademiyası tərəfindən irəli sürülür və müsabiqə qaydasında seçilir;~~

[11] 3 aprel 2009-cu il tarixli 784-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 iyun 2009-cu il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 394**) ilə 10.5-ci maddə əlavə edilmişdir.

[12] 3 aprel 2009-cu il tarixli 784-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 iyun 2009-cu il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 394**) ilə 11.4.4-cü maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~11.4.4. bu Qanunun tələbləri, xüsusi razılığın (lisenziyanın) qayda və şərtləri pozulduqda məhkəmə qarşısında iddia qaldırır;~~

[13] 3 aprel 2009-cu il tarixli 784-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 iyun 2009-cu il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 394**) ilə 11.4.6-cı maddə əlavə edilmişdir.

[14] 15 dekabr 2017-ci il tarixli **943-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 4 fevral 2018-ci il, 26, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 153** ) ilə 11.5.3-cü maddədən **"uşaqların və**" sözləri çıxarılmışdır.

19 noyabr 2019-cu il tarixli **1692-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 22 dekabr 2019-cu il, 285 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1882**) ilə 11.5.3-cü maddəyə "**onların baxa biləcəyi vaxtda göstərilməməsinə**" sözləri "**Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan vaxtda göstərilməməsinə (xüsusi dekoderlər vasitəsilə ödənişli əsasda həyata keçirilən informasiya məhsullarının telekanallarda yayımı istisna olmaqla) və həmin Qanunun teleradio yayımı sahəsində digər tələblərinin icrasına"** sözləri ilə əvəz edilmişdir.

[15] 28 oktyabr 2016-cı il tarixli **369-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 dekabr 2016-cı il, 277, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 1987**) ilə yeni məzmunda 12-1-ci maddə əlavə edilmişdir.

[16] 20 oktyabr 2006-cı il tarixli 170-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 932**) ilə 16.7-ci maddənin birinci cümləsində "müvafiq icra hakimiyyəti orqanı" sözləri "Azərbaycan Respublikasının telekommunikasiya operatoru" sözləri ilə əvəz edilmişdir.

[17] 9 oktyabr 2007-ci il tarixli 430-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1053**) ilə 16.9-cu maddədə "**məhkəməyə**" sözündən əvvəl "**inzibati qaydada və (və ya)** " sözləri əlavə edilmişdir.

[18] 24 fevral 2015-ci il tarixli **1213-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 4 aprel 2015-ci il, 069 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 4, maddə 354**) ilə 16.11-ci maddədə "**məhkəmə qarşısında iddia qaldıra bilər** " sözləri "**teleradio yayımı sahəsində müvafiq dövlət orqanına müraciət edir** " sözləri ilə əvəz edilmişdir.

[19] 9 oktyabr 2007-ci il tarixli 430-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1053**) ilə 18.5-ci maddənin üçüncü cümləsində "**bir ay müddətində**" sözlərindən sonra "**inzibati qaydada və (və ya)** " sözləri əlavə edilmişdir.

[20] 22 aprel 2005-ci il tarixli 897-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 6, maddə 469**) ilə 22.3-cü maddədə "**uzatmaq barədə"** sözlərindən sonra "**xüsusi razılığın (lisenziyanın) müddətinin bitməsinə azı 6 ay qalmış**" sözləri əlavə edilmişdir.

[21] 22 aprel 2005-ci il tarixli 897-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 6, maddə 469**) ilə 22.4-cü maddədə **"cərimə və digər sanksiyalar"** sözləri "**Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada müvafiq məsuliyyət tədbirləri**" sözləri ilə əvəz edilmişdir.

[22] 24 fevral 2015-ci il tarixli **1213-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 4 aprel 2015-ci il, 069 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 4, maddə 354**) ilə 23-cü maddənin mətni yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~23.1. Teleradio yayımçıları xüsusi razılığın (lisenziyanın) qayda və şərtlərini və ya bu Qanunun tələblərini pozduqda xüsusi razılığın (lisenziyanın) qüvvəsi və ya hər hansı proqramın yayımı məhkəmənin qərarı ilə bir ayadək müddətə müvəqqəti dayandırıla bilər.~~ ~~[22]~~

~~23.2. Xüsusi razılığın (lisenziyanın) qüvvəsinə məhkəmənin qərarı ilə yalnız aşağıdakı hallarda xitam verilə bilər:~~

~~23.2.1. xüsusi razılıq (lisenziya) yayımçının biləndən təqdim etdiyi həqiqətə uyğun olmayan məlumatlar əsasında alındıqda;~~

~~23.2.2. yayım xüsusi razılıq (lisenziya) alındıqdan sonra altı ay ərzində həyata keçirilmədikdə;~~

~~23.2.3. xüsusi razılığın (lisenziyanın) sahibinin müflisləşməsi məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi ilə təsdiq olunduqda;~~

~~23.2.4. teleradio yayımı texniki cəhətdən mümkün olmadıqda;~~

~~23.2.5. dövlət quruluşunu zorakılıqla devirməyə, dövlətin bütövlüyünə və ölkənin təhlükəsizliyinə qəsd etməyə, milli, irqi və dini ədavəti qızışdırmağa, kütləvi iğtişaşlar törətməyə və terrorizmə açıq çağırışlar teleradio yayımçısı tərəfindən müdafiə olunduqda və ya bu çağırışları səsləndirməyə biləndən şərait yaradıldıqda;~~

~~23.2.6. yayımçı müvafiq dövlət orqanı tərəfindən bir il ərzində ən azı üç dəfə sanksiyaya məruz qaldıqda;~~

~~23.2.7. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hallarda.~~ ~~[22]~~

~~23.3. Teleradio yayımı zamanı bu Qanunun və xüsusi razılığın (lisenziyanın) tələblərinin pozulması ilə bağlı məhkəməyə daxil olmuş ərizəyə ən geci 15 gün müddətində baxılıb müvafiq qərar qəbul edilməlidir.~~

[23] 30 dekabr 2003-cü il tarixli 569-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 1, maddə 10**) ilə 31-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 3 1 . **Seçki kampaniyası zamanı televiziya və radiodan istifadə**~~

~~Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisi deputatlarının və bələdiyyə üzvlərinin seçkiləri, habelə referendumlar zamanı namizədlərin və siyasi partiyaların efirdən istifadə qaydaları Azərbaycan Respublikasının müvafiq qanunları ilə tənzimlənir.~~

-

[24] 8 may 2020-ci il tarixli **93-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 25 iyun 2020-ci il, 121 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 671**) ilə 32.0.6-cı maddədə "**edilməlidir**" sözü "**olunmalı və dövlət dili normalarına riayət edilməlidir"** sözləri ilə əvəz edilmişdir.

[25] 21 dekabr 2010-cu il tarixli **37-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 fevral 2011-ci il, 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 70**) ilə 32.0.9-cu maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və qanuna yeni məzmunda 32.0.10-cu maddə əlavə edilmişdir.

[26] 8 may 2020-ci il tarixli **93-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 25 iyun 2020-ci il, 121 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 671**) ilə yeni məzmunda 32-1-ci maddə əlavə edilmişdir.

[27] 15 dekabr 2017-ci il tarixli **943-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 4 fevral 2018-ci il, 26, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 153** ) ilə 33-cü maddənin adında "**Uşaqların və yetkinlik**" sözləri "**Yetkinlik**" sözü ilə əvəz edilmişdir.

[28] 15 dekabr 2017-ci il tarixli **943-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 4 fevral 2018-ci il, 26, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 153** ) ilə 33.1-ci və 33.3-cü maddələrdən "**uşaqların və"** sözləri çıxarılmışdır.

19 noyabr 2019-cu il tarixli **1692-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 22 dekabr 2019-cu il, 285 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1882**) ilə 33-cü maddənin mətni yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~33.1. Müvafiq dövlət orqanı uşaqların və yetkinlik yaşına çatmayanların fiziki, əqli və mənəvi inkişafına ziyan vura bilən və kodsuz yayımlanan, o cümlədən erotikanı və qəddarlığı əks etdirən proqramlar üçün xüsusi qaydalar müəyyənləşdirir.~~

~~33.2. Göstərilmə vaxtı məhdudlaşdırılmış proqramların anonsunda, eləcə də yayımından əvvəl bu barədə mütləq məlumat verilməlidir.~~

~~33.3. Göstərilmə vaxtı məhdudlaşdırılmış proqramların yayımı uşaqların və yetkinlik yaşına çatmayanların baxmasına qadağa qoyulduğunu bildirən xüsusi simvollar, yazılar, yaxud proqramın xüsusiyyəti barədə digər xəbərdaredici nişanlarla müşayiət olunmalıdır.~~

[29] 8 may 2020-ci il tarixli **93-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 25 iyun 2020-ci il, 121 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 671**) ilə yeni məzmunda 35.1-1-ci maddə əlavə edilmişdir.

[30] 22 aprel 2005-ci il tarixli 897-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 6, maddə 469**) ilə 35.4-cü maddənin ikinci cümləsində **"20 dəqiqədən"** sözləri "**15 dəqiqədən**" sözləri ilə əvəz edilmişdir.

[31] 3 aprel 2009-cu il tarixli 784-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 iyun 2009-cu il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 394**) ilə 35.7-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~35.7. Reklamın və teleticarətin ümumi həcmi gün ərzində yayımlanan verilişlərin ümumi həcminin 20, ayrılıqda reklamın ümumi həcmi isə gün ərzində yayımlanan verilişlərin ümumi həcminin 15 faizindən çox ola bilməz.~~

[32] 22 aprel 2005-ci il tarixli 897-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 6, maddə 469**) ilə 35.8-ci maddədə **"həcmi**" sözündən sonra "**bir saatda**" sözləri əlavə edilmişdir.

[33] 30 dekabr 2003-cü il tarixli 569-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 1, maddə 10**) ilə 35.9-cu maddə çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~35.9. Seçkilərin və referendumların keçirildiyi gün efirə siyasi təbliğat xarakterli reklam materialları vermək qadağandır.~~

-

[34] 22 aprel 2005-ci il tarixli 897-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,**

**2005-ci il, 6, maddə 469**) ilə 35.10-cu maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~35.10. Televiziya və radio ilə narkotik vasitələrin, silahların, pornoqrafiyanın, tütün məmulatlarının, spirtli içkilərin, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə reklamı qadağan olunan digər məhsulların reklamına yol verilmir.~~

-

17 aprel 2007-ci il tarixli 313-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 6, maddə 560**) ilə 35.10-cu maddəsinə "**narkotik vasitələrin,**" sözlərindən sonra "**psixotrop maddələrin,**" sözləri əlavə edilmişdir.

[35] 22 may 2007-ci il tarixli 348-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 8, maddə 749**) ilə 35.11-ci maddədə "dərmanların, tibb təyinatlı məhsulların və texnikanın" sözləri "tibb vasitələrinin" sözləri ilə əvəz edilmişdir.

[36] 22 may 2007-ci il tarixli 348-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 8, maddə 749**) ilə 35.12-ci maddədə "Həkim resepti ilə verilən dərmanların" sözləri "Dərman vasitələrinin" sözləri ilə əvəz edilmişdir.

22 iyun 2010-cu il tarixli 1047-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 18 iyul 2010-cu il, 153 Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-ci il, 7, maddə 600** ) ilə 35.12-ci maddəsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~Dərman vasitələrinin reklamı qadağandır.~~

[37] 15 dekabr 2017-ci il tarixli **943-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 4 fevral 2018-ci il, 26, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 153** ) ilə 35.14-cü maddədən "**uşaqların və**" sözləri çıxarılmışdır.

19 noyabr 2019-cu il tarixli **1692-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 22 dekabr 2019-cu il, 285 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1882**) ilə 35.14-cü maddədə "**aşağıdakı tələblərə**" sözləri "**Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla aşağıdakılara**" sözləri ilə əvəz edilmişdir.

[38] 15 dekabr 2017-ci il tarixli **943-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 4 fevral 2018-ci il, 26, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 153** ) ilə 35.14.1-ci maddədən "**uşaqlara və**" sözləri çıxarılmışdır və həmin maddədə "**uşaqların**" sözü "**onların**" sözü ilə əvəz edilmişdir.

[39] 15 dekabr 2017-ci il tarixli **943-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 4 fevral 2018-ci il, 26, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 153** ) ilə 35.14.2-ci maddədən "**uşaqlar və**" sözləri çıxarılmışdır.

[40] 3 aprel 2009-cu il tarixli 784-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 iyun 2009-cu il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 394**) ilə 37.3-cü maddə əlavə edilmişdir.

[41] 30 dekabr 2003-cü il tarixli 569-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 1, maddə 10**) ilə 38.5-ci maddə əlavə edilmişdir.

[42] 22 aprel 2005-ci il tarixli 897-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 6, maddə 469**) ilə 39.6-cı maddə əlavə edilmişdir.

3 aprel 2009-cu il tarixli 784-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 iyun 2009-cu il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 06, maddə 394**) ilə 39.6-cı maddədə "**özünün televiziya**" sözlərindən sonra "**və radio**" sözləri əlavə edilmişdir.

[43] 8 may 2020-ci il tarixli **95-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 2 iyun 2020-ci il, 103 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 673**) ilə yeni məzmunda 40.2.1-1-ci maddə əlavə edilmişdir.

[44] 2 noyabr 2018-ci il tarixli **1328-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 dekabr 2018-ci il, 281 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2477**) ilə yeni məzmunda 40.2.2-1-ci maddə əlavə edilmişdir.

[45] 19 noyabr 2019-cu il tarixli **1692-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 22 dekabr 2019-cu il, 285 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1882**) ilə yeni məzmunda 40.2.2-2-ci maddə əlavə edilmişdir.

[46] 20 oktyabr 2006-cı il tarixli 167-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1005**) ilə 40.2.4-cü maddədə "**şəxsi**" sözündən sonra "**və ailə**" sözü əlavə edilmişdir.

[47] 8 may 2020-ci il tarixli **93-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 25 iyun 2020-ci il, 121 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 671**) ilə yeni məzmunda 35.1-1-ci maddə əlavə edilmişdir.

[48] 2 noyabr 2018-ci il tarixli **1328-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 dekabr 2018-ci il, 281 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2477**) ilə yeni məzmunda 40.3-cü maddə əlavə edilmişdir.